**Qulaq akupunkturası və razılıq haqqında məlumat**

**Bu müəssisədə biz sizi NADA protokoluna uyğun olaraq qulaq akupunktrura müalicəsi ilə təmin edirik**

Bu müalicə digər şeylərin arasında böhran vəziyyətində olan və yaxud çətin zamanlar keçirən adamlar üçün istifadə olunur. Qulaq akupunktrurasını hər kəsə tətbiq etmək olar. Tibbi fəsadlar məlum deyil.

Akupunktura rahatlıq gətirir (məs. gərginlik və narahatlıq zamanı), o, həssaslıq və təmərküzləşməni oyadır (məs. tükənmə və davamlı yorğunluq zamanı) və yuxunu qaydaya salır (yuxusuzluq zamanı)

NADA akupunkturası stres, narahatlıq və gərginliyin öhdəsindən yaxşı gəlməyiniz üçün sizə güc verir.

Bu müalicə əksər hallarda qrupla həyata keçirilir. Siz əyləşirsiniz və qulaqlarınızı tamponla təmizləyirsiniz. **Hər iki qulağa təqribən 2 mm dərinliyində 3-5 kiçik iynə sancılır**. İynələmə qısa müddət ərzində zəif ağrıya səbəb ola bilər. Deşmə zamanı nəfəs almaq kömək edir. Baxıcı bunu etmək üçün sizi həvəsləndirir.

İynələr qulaqda – mümkün olduqda – 30-45 dəqiqə müddətində qalır: Lütfən, bu müddət ərzində yeməyin, içməyin, oxumayın və ətrafda gəzməyin. Bəzən iynələr özləri düşə bilər. Buna görə narahat olmayın.

Müalicənin sonunda siz iynələri çıxarır və hamısını konteynerə yerləşdirirsiniz. Sonra deşikləri sellüloz tamponla silin. Bir müddət qanama ola bilər. Bu da normal haldır.

**İynələrin yerinə qulaq nöqtələri qızılı maqnit muncuqlarla müalicə oluna bilər**. Bu "sədəflər" dərinin kiçik hissələrinə bərkidilir və bir həftə orada qala bilər. Ondan sonra onları dəyişdirmək lazımdır.

NADA akupunkturası asandır və nadir hallarda fəsadlara səbəb olur. O – çox nadir hallarda – akupunktura nöqtəsində iltihaba səbəb ola bilər. Sonra onu həkim müalicə etməlidir. Çox nadir hallarda o, ürək-damar reaksiyasına və ya baş ağrısına səbəb olur. Bu hallar baş verdikdə iynələr çıxarılmalıdır. Bu həm də inanclardan irəli gələn emosional reaksiyalara səbəb ola bilər.

**Mən məlumatı anlayıram və qulaq akupunkturası ilə razılaşıram.**

| ______________________ | ______________________ | ___________ |
|---|---|---|
| Tarix | Soyad | İmza |

**"NADA" "Milli Akupunktur Detoksifikasiya Assosiasiyası"nın qısaldılmış formasıdır.**